## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

## S Ə R Ə N C A M

**№ 312s**

*Bakı şəhəri, 11 oktyabr 2011-ci il*

Azərbaycan Respublikasının 2010-cu il 21 dekabr tarixli 28-IVQ nömrəli Qanunu ilə təsdiq edilmiş, 2010-cu il sentyabrın 3-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in 5-ci maddəsinin 1-ci hissəsinə əsasən:

1. Samur transsərhəd çayının su ehtiyatlarının bölünməsi üzrə Azərbaycan-Rusiya Birgə Komissiyasının (bundan sonra - Birgə Komissiya) Azərbaycan tərəfindən tərkibi aşağıdakı kimi müəyyən edilsin:

| | |
|---|---|
| Zakir Quliyev | - Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini, Birgə Komissiyanın həmsədri |
| | Birgə Komissiyanın üzvləri: |
| Tariel Hüseynov | - Fövqəladə Hallar Nazirliyinin İnfrastrukturun inkişafı baş idarəsinin rəisi |
| Şahid Fərəməzov | - Qusar Rayon İcra Hakimiyyəti başçısının müavini |
| Ədalət Salmanov | - Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Aparatı rəhbərinin müavini |
| Azad Ələkbərov | - Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsi rəisinin müavini |
| Rəşail İsmayılov | - Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeorologiya Mərkəzinin qrup rəhbəri |
| Əkbər Məmmədov | - Nəqliyyat Nazirliyinin nəqliyyat müfəttişliyi şöbəsinin baş məsləhətçisi |
| Əbdülrəhim Hacıyev | - Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su anbarları və hidroqovşaqların istismarı sektorunun müdiri |

2. Birgə Komissiya fəaliyyətində "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in 5-ci maddəsini əsas tutur və 6-cı maddəsində göstərilmiş səlahiyyətlərin həyata keçirilməsini təmin etmək üçün müvafiq təkliflərlə çıxış edir.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci hissəsi ilə müəyyən edilən Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**